**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Günəşli” yedək gəmisinin əsaslı təmiri xidmətlərinin (işlərinin) satınalması məqsədilə açıq tender elan edir.**

**I. Tenderdə iştirak etmək üçün təqdim edilməli sənədlər:**

- Tenderdə iştirak üçün müraciət məktubu (*forma əlavə olunur*) ;
- İddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış — bütün dəyişiklik və əlavələrlə birlikdə) müəssisə möhürü ilə təsdiqlənmiş surətləri, bank rekvizitləri və maddi-məsul şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- Məsul şəxsin imza səlahiyyətini təsdiq edən sənəd;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- İşlərin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya;
- Müvafiq mənşə və uyğunluq sertifikatları və sair;
- İş təcrübəsi (oxşar işlər üzrə korporativ müştərilərə xidmət), maddi-texniki baza (peşəkar işçi heyəti, subpodratçılar haqqında (subpodratçının iş təcrübəsi, maddi-texniki bazası və sair) haqqında yazılı (səlahiyyətli şəxsin imzası və müəssisənin möhürü ilə təsdiqlənmiş) məlumat;
- Müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması barədə yazılı məlumat (müraciət məktubu üzrə);
- Texniki tələblər üzrə (1 nömrəli əlavə) müəyyən edilmiş digər məlumatlar.

** Yuxarıda qeyd edilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, Cəmiyyət açıq tenderdə iştirak etmək istəyən malgöndərəni (və ya xidmət göstərən) iddiaçı kimi qeydə alır.*

** Cəmiyyət təqdim edilmiş sənədlərin hər hansı birinin və ya bir neçəsinin çatışmadığı, yaxud bu sənədlərin hər hansı birində və ya bir neçəsində dəyişikliyə ehtiyac olduğu qənaətinə gələrsə, sənədlər təqdim olunduqdan ən çoxu 2 (iki) bank günü sonra çatışmayan sənədi təqdim etməyi, yaxud bu sənədlərdə müvafiq dəyişiklik aparmağı iddiaçıya təklif edir. Bu halda sənədlər iddiaçı tərəfindən tam şəkildə və müvafiq düzəlişlərlə tender prosedurunun başlanmasına azı 3 (üç) bank günü qalmış Cəmiyyətə təqdim olunmalıdır.*
** Tender prosedurunun istənilən dövründə iddiaçının öz ixtisas göstəriciləri haqqında saxta məlumat təqdim edildiyi müəyyən olunduqda, həmin iddiaçı tenderdən kənarlaşdırılır.*

Yuxarıda qeyd edilən sənədlər ən geci **14 mart 2023-cü il saat 17:00-dək,** sənədləri qeyd olunan vaxta qədər təqdim etmiş iddiaçılar tərəfindən tender təklifləri bağlı və möhürlü zərfdə **17 mart 2023-cü il saat 17:00-dək** “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin yerləşdiyi ünvana (*Nəsimi rayonu, Ü.Hacıbəyov 140, AZ1010*) təqdim olunmalıdır. İddiaçıların müraciətinə uyğun olaraq satınalma predmeti üzrə Əsas Şərtlər Toplusu

elektron və ya çap formasında əlaqələndirici şəxs tərəfindən **14 mart 2023-cü il saat 13:00-dək,** müraciət edən iddiaçılara təqdim olunur.

Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan **geri qaytarılacaqdır**.

**II. Tender təklifi zərflərinin açılışı tarixi, vaxtı və yeri:**
Zərflərin açılışı **27 mart 2023-cü il saat 12:00-da** elanın **I** bölməsində göstərilmiş ünvanda baş tutacaqdır.
**Zərflərin açılışında iştirak etmək istəyən şəxslər barədə öncədən təmsil edəcəyi müəssisə tərəfindən əlaqələndirici şəxsin elektron ünvanına məlumat göndərilməlidir (şəxsiyyət vəsiqəsinin "scan"-ı) və iştirakı nəzərdə tutulan şəxsin şəxsiyyət vəsiqəsi vəetibarnamə üzərində olmalıdır.*
**Komissiyanın qərarı bildiriş məktubu olaraq bütün iştirakçılara göndərilir.*

Əlaqələndirici şəxs:


| | |
|---|---|
| Elnarə Sərdarova: | Satınalmalar şöbəsinin aparıcı mütəxəssisi |
| Əlaqə nömrəsi: | +994 12 599 00 03 (daxili 3704), +99455 2062470 |
| Elektron ünvan: | esardarova@portofbaku.com |

**Əlavə 2.**

***(İddiaçı malgöndərənin (podratçının) rəsmi blankında)***
**AÇIQ TENDERDƏ İŞTİRAK ETMƏK ÜÇÜN**
**MÜRACİƏT MƏKTUBU**

___________şəhəri                                                                 “__”_______20__-cü il

___________№

**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin**
**Satınalma Komissiyasının sədri**
**cənab Söhrab İsmayılova**

Bu məktubla *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir*) olaraq “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-yə məxsus məxsus “Günəşli” yedək gəmisinin əsaslı təmiri xidmətlərinin (işlərinin) satınalması ilə əlaqədar 16 fevral 2023-cü il tarixində elan edilmiş açıq tenderdə iştirak niyyətimizi təsdiq edirik.

Eyni zamanda *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* ilə münasibətdə hər hansı ləğv etmə və ya müflislik prosedurunun aparılmadığını, fəaliyyətinin dayandırılmadığını, əmlakı üzərində həbsin qoyulmadığını, ödənişə yönəlmiş girovun olmadığını və sözügedən satınalma müsabiqəsində iştirakını qeyri-mümkün edəcək hər hansı bir halın mövcud olmadığını təsdiq edirik.

Əlavə olaraq, təminat veririk ki, *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən hüquqi, maliyyə və təşkilati asılılığı olan şəxs deyildir.

Əsas şərtlər toplusunun elektron versiyasını aşağıdakı elektron poçt ünvanına göndərməyiniz xahiş olunur: ____________

Tərəfimizdən təqdim edilən sənədlər və digər məsələlərlə bağlı yaranmış suallarınızıcavablandırmaq üçün əlaqə:

- Əlaqələndirici şəxs:
- Əlaqələndirici şəxsin vəzifəsi:
- Telefon nömrəsi:
- E-mail:

Səlahiyyətli şəxsin a.a.s.                                                     Səlahiyyətli şəxsin imzası

________________________________
*Səlahiyyətli şəxsin vəzifəsi*

**M.Y.**